# 2024-cü il TEXNOLOGİYA KOLLECLƏRİNDƏ təhsil üzrə Yaponiya Dövlət Təqaüd proqramı

**Proqrama sənəd qəbulu davam edir!!**

**Sənəd qəbulu 2 iyun, (cümə, saat 17:00-dək)**

**2023-cü ilədək davam edəcək!**

**Bu sənəddə ətraflı məlumat yazıldığı üçün sənədi diqqətlə və sona qədər oxuduqdan sonra suallarınız yaranarsa səfirliklə əlaqə saxlamağınız xahiş olunur.**

**Bu proqramla bağlı Səfirliklə əlaqə saxlamaq üçün aşağıdakı 2 üsuldan istifadə edə bilərsiniz:**

1) ***Telofonla:*** **Səfirliyimiz iş günləri saat 09:00-17:30 arası zəngləri qəbul edə bilər.**
2) ***Mail vasitəsilə:*** **culture-info@bk.mofa.go.jp** mail ünvanı

VACİB: Hal-hazırda sənədlər yalnız **mail vasitəsilə** qəbul olunur. Sənədlərinizi səfirliyin **culture-info@bk.mofa.go.jp** ünvanına göndərməyiniz xahiş olunur. Sənədləriniz qəbul olunduqdan sonra, sizə səfirlik tərəfindən *"Müraciətçi nömrəsi"* veriləcəkdir. Sənəd qəbulu ilə bağlı ətraflı bu sənədin 8-9-cu səhifələrində qeyd olunmuşdur.

Proqramla bağlı bütün yeniliklər üçün rəsmi internet səhifəmizi və sosial media hesablarımızı (**Facebook** və **Instagram**) izləməyi tövsiyə edirik.

**MÜNDƏRİCAT**


A) Təqaüd proqramı haqqında (proqramın məzmunu, müraciətçiyə olan şərtlər)…..........................................2

B) Seçim prosesinin gedişatı…………………………………………………….....................................8

C) Müraciət üçün lazım olan sənədlər…………………………………………………………….............12

D) Tez-tez soruşulan suallar…………………………………………………………………….............16

E) Əlavə məlumat…… ………………………………………………………………… ……….................18

<table>
<tr><th colspan="3">A) Təqaüd proqramı haqqında (proqramın məzmunu, müraciətçiyə olan şərtlər)</th></tr>
<tr><td>Nə proqramıdır?</td><td colspan="2">Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyinin xarici tələbələr üçün təqdim etdiyi Yaponiyanın texnologiya kolleclərində təhsil almaq üçün nəzərdə tutulmuş təqaüd proqramı<br><br>Qeyd: Proqramda 1 illik hazırlıq təhsili aldıqdan sonra, birbaşa kollecin 3-cü kursunda təhsil almaqla 3 illik ixtisas təhsili (hazırlıq təhsili ilə birgə cəmi 4 il) nəzərdə tutulur. Dəniz mühəndisliyi ixtisası üzrə təhsil almaq istəyən şəxslərdə isə ixtisas təhsili 3.5 ildir (hazırlıq təhsili ilə birgə cəmi 4.5) il.</td></tr>
<tr><td>Proqramın rəsmi “Təlimat kitabçası”</td><td colspan="2">İngilis dilində<br>Yapon dilində<br><br>※ Proqram haqqında ən detallı məlumat bu kitabçalardadır. Azərbaycan dilindəki bu izahatda bütün məqamlara ətraflı toxunulmadığı üçün bu kitabçaları mütləq oxumağınız xahiş olunur.<br>※</td></tr>
<tr><td rowspan="3">Texnologiya kolleci nədir və bu barədə ətraflı məlumat</td><td>Texnologiya kolleci nədir?</td><td>Yapon dilində “Kosen” (高等専門学校) adlandırılan bu orta-ixtisas məktəbi (kollec) texnologiya yönümlü ixtisalar üzrə 5 illik ixtisas təhsili verən xüsusi peşə-ixtisas təhsil müəssisəsidir. Yaponiyada (yaponlar üçün) kollecə daxil olmaq üçün 9 və ya 11 illik məktəb təhsilini bitirmək lazımdır. Bu, təhsil dərəcəsi olaraq Azərbaycanın orta-ixtisas məktəblərinə (“subbakalavr”) uyğun gəlir.</td></tr>
<tr><td>Bu kolleclərin əsas məqsədi nədir?</td><td>Bu kolleclərin əsas məqsədi texnologiya sahəsində ixtisaslı kadrların, mühəndislərin yetişdirilməsidir. Əsas məqsədlərdən biri kadrların öz ixtisaslarına uyğun dərin bilikləri mənimsəməsi, müəyyən texnologiya sahəsi üzrə bacarıq və qabiliyyətlərini təkmilləşdirməsidir.<br>KOSEN ilk dəfə 1962-ci ildə Yaponiyada surətli sənayə inkişafı və çoxsaylı mühəndislərə ehtiyac olan dövrdə yaradılmış təhsil müəssisəsi olub, məhz sənayənin tələbatına cavab verən ixtisaslı kadr və mühəndisləri yetişdirir.</td></tr>
<tr><td>Nə kimi üstünlükləri var?</td><td><ul><li>Universitetlər kimi burada da 11 illik orta məktəb təhsilini bitirmiş şəxslər təhsil alıb, 5 illik təhsil ərzində öz ixtisas sahələri üzrə tam bacarıqlı kadr kimi bütün bilik və bacarıqlara (nəzəri bilik və praktika) dərindən yiyələnmə imkanı</li><li>Texnologiya kollecləri arasında keçirilən Ümumyaponiya Robot, Proqramlaşdırma, Dizayn yarışması kimi yarışlarda iştirak və daim təkmilləşmə imkanı</li><li>Məzunlara Yaponiya sənayə və texnologiya sahələrindən böyük tələbat və maraq vardır. Bunun</li></ul></td></tr>
</table>

| | | |
|---|---|---|
| | | nəticəsində, məzunların müvafiq sənaye sahəsi üzrə *işlə təmin olunma faizi demək olar ki, 100%-dir.*<br>• Kolleci bitirdikdən sonra əlavə olaraq 2 illik *"İntensiv Təkmilləşdirmə Kursu"* təhsili almaq və ya Yaponiya universitetlərində bakalavr dərəcəsi üzrə təhsili davam etdirmək<br>• Akkreditə olunmuş Texnologiya kollecləri universitetlərin texnologiya təhsil proqramları standartlarına və beynəlxalq standartlara uyğun gəlir. |
| | Kimlər üçün nəzərdə tutulub? | 11 illik orta məktəb təhsilini bitirmiş və hər hansısa sənaye, istehsal və texnologiya üzrə dərin ixtisas biliklərinə yiyələnmək istəyən insanlar üçün nəzərdə tutulan 5 illik ixtisas təhsilidir. *MEXT proqramına müraciət edəcək şəxslər üçün isə kollecin 3-cü kursundan başlayan **3 illik** (bəzi hallarda 3.5 il) təhsil olacaqdır.*<br>*Yaponiyada texnologiya kolleclərində təhsil almış şəxslər universitetin bakalavr dərəcəsində təhsil almış şəxslərlə müqayisədə öz ixtisasları ilə bağlı daha çox praktik biliyə malik olurlar. Kolleclərdə dərs cədvəlinin böyük hissəsi fabrik, zavod və digər istehsal sahələrində praktik məşqlər keçməkdən ibarət olduğu üçün, nəzəri biliklərin tətbiqi məsələsində çox effektiv bir təhsil pilləsi olduğu düşünülür.* |
| | Nə təhsili verir? | Texnologiya, istehsal və sənayə sahəsində həm nəzəri, həm də aktiv praktik təcrübə təhsili olub, müvəffəq olan şəxslərə sonda "Subbakalavr (Associate) dərəcəsi" verilir.<br><br>*Qeyd:* Təhsil yapon dilində olacaqdır. |
| | Texnologiya Kollecini bitirdikdən sonra nə edə bilərəm? | • Azərbaycana qayıdıb ixtisaslı kadr olaraq çalışmaq<br>• Əlavə olaraq 2 illik "İntensiv Təkmilləşdirmə Kursu" keçmək (bu kursdan sonra *"Akademik Dərəcələr və Ali Təhsilin Keyfiyyətinin Artırılması Dövlət İnstitutu"* (*National Institution for Academic Degrees and Quality Enhancement of Higher Education (NIAD-QE)*) tərəfindən olan imtahandan müvəffəq olarlarsa, "Bakalavr dərəcəsi" ilə təltif olunacaqlar.)<br>• Universitetə transfer olunaraq, *3-cü kurs Bakalavr tələbəsi* olaraq təhsil almaq (bitirdikdən sonra universitetdən "Bakalavr" dərəcəsi almaq)<br>• Yaponiyada ixtisaslı kadr olaraq işləmək |
| **Yaponiya təhsil sistemi və orada KOSEN təhsilinin (Texnologiya** | Aşağıdakı qrafikdə Yaponiya təhsil sistemi və orada "Texnologiya kolleci" təhsilinin yeri qedy olunmuşdur.<br><br>KOSEN (Yaponiya texnologiya kollecləri) haqqında daha ətraflı məlumat almaq istəyirsiniz? Bu linklərə nəzər salsanız bu təhsil pilləsinin Yaponiyada çox reytinqli olduğunu anlamış olacaqsınız. | |

<table>
<tr>
<td>Kolleclərinin)<br>yeri</td>
<td>
https://www.kosen-k.go.jp/Portals/0/resources/english/kosen_general_brochure.pdf<br>
https://www.kosen-k.go.jp/english/what/features/features.html<br>
https://www.kosen-k.go.jp/english/what/educationsystem/<br>
https://www.kosen-k.go.jp/english/link/<br>



</td>
</tr>
<tr>
<td>Niyə məhz<br>Yaponiya?</td>
<td>
MEXT Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyinin qısaldılmış adıdır.<br>
♨ Dünyanın ən qabaqcıl texnologiya, elm ölkələrindən birində təhsil<br>
♨ Dünyanın ən təhlükəsiz və inkişaf etmiş ölkələrindən birində təhsil<br>
✌ Yaponiyada hal-hazırda 60-a yaxın texnologiya kollecləri mövcüd olub, 60000-dən çox tələbə təhsil alır. Onlardan hal-hazırda xarici tələbələrin sayı 500 nəfərdən çoxdur.Bu kolleclər məhz dövlətin idarəçiliyində olub, sənaye sahələrinin ixtisaslı kadrlara olan tələbatını təmin edir.<br>
♨ Hal-hazırda Yaponiyada 300.000-dən çox xarici tələbə təhsil alır və Yaponiya hökuməti bu rəqəmi artırmağı planlaşdırır.<br>
<br>
Daha çox bilmək istəyirsiniz? Yaponiyanın təhsil sistemi və Yaponiya həyatı haqqında maraqlı məlumatlar ala bilərsiniz:<br>
<br>
https://www.jasso.go.jp/en/study_j/search/index.html<br>
https://www.jasso.go.jp/en/study_j/search/globaldialogue.html<br>
https://www.jasso.go.jp/en/study_j/sgtj.html<br>
https://www.studyinjapan.go.jp/en/planning/by-style/pamphlet/<br>
https://www.studyinjapan.go.jp/en/_mt/2022/11/SGminiAZ_Web.pdf
</td>
</tr>
</table>

<table>
<tr><td>Niyə məhz MEXT Təqaüdü?</td><td colspan="2">👉 Yaponiyanın ən tanınan dövlət təqaüdü<br>👉 Təqaüd nələri əhatə edir? 👇<br>① Yaponiyaya gediş və qayıdış aviabiletləri<br>② Təhsil haqqından azad olma<br>③ Aylıq təqaüd: 117000 yapon yeni</td></tr>
<tr><td>Proqramın (təqaüdün) müddəti</td><td colspan="2">4 il: Aprel, 2024-cü il ~ mart, 2028-ci il (1 il Yaponiyada <u>yapon dili</u> və ya <u>digər fənlər</u> üzrə Hazırlıq Təhsili bu müddətə daxildir.)<br><br><u>Dəniz mühəndisliyi</u> ixtisası üzrə müraciət edəcək şəxslər: 4.5 il (Aprel, 2024-cü il ~ sentyabr, 2028-ci il ((1 il Yaponiyada <u>yapon dili</u> və ya <u>digər fənlər</u> üzrə Hazırlıq Təhsili bu müddətə daxildir.)</td></tr>
<tr><td></td><td>Təqaüd müddətini uzatmaq mümkündür?</td><td>Bəli, mümkündür. Tələbə texnologiya kollecindəki təhsili bitirdikdən sonra, MEXT və təhsil müəssisəsinin tələblərinə cavab verən yaxşı nəticələr göstərərsə, əlavə olaraq təklif olunan 2 illik “İntensiv Təkmilləşdirmə Kurslarına” və transfer olunaraq universitetin 3-cü kursuna irəliləyə bilər. Bunlara müvəffəq olarsa, təqaüd müddətinin uzadılması mümkündür.</td></tr>
<tr><td>Hansı səviyyələr üzrə təhsil almaq olar?</td><td colspan="2">1) 1 illik intensiv Hazırlıq Mərhələsi<br><br>2) Texnologiya Kollecində təhsil alaraq “Subbakalavr” dərəcəsinə sahib olmaq<br><br>3) Daha sonra, “İntensiv Təkmilləşdirmə kursu” və ya universitetin 3-cü kursuna transfer olunmuş tələbə qismində təhsil alaraq “Bakalavr” dərəcəsinə yiyələnmək şansı da vardır.<br><br>Qeyd: Bütün dərslər yapon dilində olacaqdır.</td></tr>
<tr><td>Hər bir səviyyə haqqında daha ətraflı</td><td colspan="2">1) Hazırlıq Mərhələsi<br><br>Hər bir iştirakçı ilk növbədə MEXT tərəfindən təyin olunmuş hazırlıq institutunda 1 illik intensiv Hazırlıq Mərhələsi keçir. Bu, iştirakçının texnologiya kollecində təhsil ala bilməsi üçün lazım olacaq yapon dili, yaponşünaslıq, riyaziyyat və digər lazımlı fənlər üzrə bilgiləri tədris edən intensiv kursdur.<br><br>Qeyd: İştirakçı hazırlıq kursunu bitirdikdən sonra <u>MEXT tərəfindən təyin olunmuş texnologiya kollecində</u> təhsilə başlayır. Əgər iştirakçı hazırlıq kursunu müvəffəqiyyətlə bitirə bilməzsə və ya bitirdikdən sonra kolleсə daxil ola bilməzsə, onun təqaüdü ləğv olunanacaq və təhsili dayandırılacaqdır.<br><br>2) Texnologiya Kolleci<br>Hazırlıq kursunu bitirəcək iştirakçılar <u>MEXT tərəfindən kolleclərlə məsləhətləşmə nəticəsində qərarlaşmış</u> Texnologiya Kollecində təhsilə başlayırlar. Bu təhsil adətən 3 il davam edir. Bu zaman tələbə qərarlaşmış universitetə qarşı etirax bildirə bilməz.<br><br>3) Texnologiya kollecini müvəffəqiyyətlə bitirən şəxslər seçim olaraq növbəti təhsil pilləsi kimi <u>2 illik “İntensiv Təkmilləşdirmə Kursunda”</u> təhsil ala bilərlər. Bu kursu bitirdikdən sonra “Akademik Dərəcələr və Ali Təhsilin Keyfiyyətinin Artırılması Dövlət İnstitutu” (<u>National İnstitution for Academic Degrees and Quality Enhancement of Higher Education</u></td></tr>
</table>

| | |
|---|---|
| | *(NIAD-QE))* tərəfindən olan imtahandan müvəffəq olarlarsa, "Bakalavr dərəcəsi" ilə təltif olunacaqlar.<br>Eyni zamanda, müvəffəq olan şəxslər əlavə təhsil olaraq *universitetin 3-cü kursuna* transfer olaraq təhsilini bakalavr pilləsi üzrə davam etdirə bilərlər. |
| **Hansı sahələr və ixtisaslar üzrə təhsil almaq olar?** | İxtisas seçimləri aşağıdakı **sahələr** üzrə ola bilər:<br><br>A) Mexanika Mühəndisliyi<br><br>B) Elektrik və Elektronika Mühəndisliyi<br><br>C) İnformasiya, Kommunikasiya və Şəbəkə Mühəndisliyi<br><br>D) Materialşünaslıq Mühəndisliyi<br><br>E) Memarlıq<br><br>F) İnşaat Mühəndisliyi<br><br>G) Dəniz Mühəndisliyi<br><br>H) Digər Sahələr<br><br>Hər bir sahə üzrə dəqiq ixtisaslar haqqında **"Təhsil Sahəsinə Dair İxtisas və Əsas Terminlər" ("Majors and Related Key Terms for Fields of Study")** adlı sənəddə ətraflı məlumat tapa bilərsiniz. Həmin sənədə nəzər saldıqdan sonra təhsil almaq istədiyiniz ixtisasları 1-ci, 2-ci və 3-cü seçim üzrə seçə bilərsiniz. İxtisas seçimi ilə bağlı bəzi qaydalar mövcuddur. Qaydalarla aşağıdakı bölmədə tanış ola bilərsiniz. |
| **İxtisas seçimi ilə bağlı xüsusi qaydalar** | **"H) Digər Sahələr"** (İnternational Communication or Management İnformation Engineering) kateqoriyasını seçmiş şəxslər üçün qəbul ala biləcəkləri texnologiya kolleclərinin say məhdudiyyəti üzündən çətinlik yarana bilər. Odur ki, seçimlərdə yalnız **"H) Digər Sahələr"** kateqoriyasını seçməməyiniz və mütləq digər Kateqoriya üzrə ixtisasları da qeyd etməyiniz məsləhətidir.<br><br>**"H) Digər sahələr"** kateqoriyasını seçərkən, onunla bərabər A~G kateqoriyalarının istənilən birini də seçimlər olaraq qeyd edə bilərlər. Lakin, bu zaman seçəcəyiniz ixtisas kateqoriyası üçün mütləq olmasından asılı olaraq, yazılı imtahanda *kimya və ya fiziki imtahanı* olacağına da diqqət yetirməyiniz xahiş olunur. Lakin, *sadəcə "H" kateqoriyasını* qeyd edərsəniz, *"Müraciət forması" sənədinin 14-cü punktunda* imtahan seçimi olaraq kimya və ya fizki imtahanına birinə seçim etməyiniz gərək olacaqdır. Bu məsələdə diqqətli olmağınız xahiş olunur.<br><br>**"D) Materialşünaslıq Mühəndisliyi"** sahəsini seçən şəxslər digər sahələr üzrə seçim edə bilməzlər (yeganə olaraq "H) kateqoriyası" ilə birgə seçim mümkündür). Yəni, *"D) kateqoriyasını"* seçənlər ya 3 seçimini də həmin kateqoriya üzrə edə, ya da *"H) kateqoriyasından"* da ixtisas əlavə edə bilərlər.<br><br>**"G) Dəniz mühəndisliyi"** sahəsini seçəcək şəxslər üçün sağlamlıq göstəriciləri: *eynək və ya eynəksiz hər iki gözdə 0.5 görmə göstəricisi olmalı* və *rəng korluğu olmamalıdır*. |

| MÜRACİƏTÇİYƏ OLAN ŞƏRTLƏR | | |
|---|---|---|
| **Kimlər müraciət edə bilər?** | Yaş həddi | **1999-ci il 2 aprel** tarixindən sonra anadan olmuş şəxslər (17-25 yaş) |
| | Milliyyət | Ancaq Azərbaycan vətəndaşları proqrama müraciət edə bilərlər.<br><br>*VACİB QEYD:* Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyinə yalnız Azərbaycanda yaşayan, yazılı imtahan, müsahibə zamanı fiziki olaraq iştirak edə biləcək və proqramdan müvəffəq olduğu təqdirdə, Azərbaycandakı Yaponiya səfirliyindən viza alaraq Yaponiyaya yola düşə biləcək Azərbaycan vətəndaşları müraciət edə bilər.<br><br>*DİQQƏT:* Digər ölkələrdə yaşayan Azərbaycan vətəndaşları başqa ölkələrdəki Yaponiya Səfirliklərinə müraciət edə bilməzlər! |
| | Müraciətçiyə olan digər şərtlər | • 11 illik təhsili bitirmiş və ya 2024-cü ilin mart ayınadək bitirəcək şəxslər<br>• Yapon dilinə, Yaponiyaya marağı olan və gəldikdən sonra həmin ölkə haqqında biliklərini artırmaq istəyən şəxslər. Eyni zamanda, *yapon texnologiya kollecində təhsil almağa maraq göstərən şəxslər*<br>• Əqli və fiziki cəhətdən sağlam olan şəxslər (“Sağlamlıq haqqında arayış” sənədini təqdim edəcək həkim tərəfindən formada qeyd olunmalıdır)<br>*☆ Müraciətçilərə olan digər şərtlər haqqında daha ətraflı “Təlimat Kitabçası” (ingilis dili, yapon dili)* |
| **Müraciətçiyə olan gözləntilər hansılardır?** | Bu proqramın ən başlıca məqsədlərindən biri xarici tələbənin Yaponiyada təhsilindən sonra öz ölkəsi ilə Yaponiya arasında qarşılıqlı əlaqələrin yaradılmasında körpü rolunu oynayacaq kadr kimi yetişdirilməsidir. Odur ki, seçimlər zamanı bu məqsədə xidmət edə biləcək şəxslərə üstünlük veriləcəkdir. Eyni zamanda, proqram iştirakçılarından Yaponiyada öyrəndiklərini, əldə etdikləri təcrübələri öz ölkəsində tətbiq etməklə iki ölkə arasında qarşılıqlı anlaşmanın artırılmasına töhvə verməsi gözlənilir. | |
| **Neçə nəfər seçiləcək?** | Bu proqramda ölkə üzrə iştirakçı sayına kvota qoyulmamışdır. Lakin, 2-ci seçim mərhələsində (MEXT mərhələsi) dünya üzrə ortalama bala əsasən seçimlər edilir. Yəni, həmin ilin ortalama ballarına əsasən dünya üzrə yüksək bal toplamış şəxslər yekun mərhələdə qalib ola bilir. Səfirlik mərhələsindən keçsəniz də belə, sizin nəticələriniz dünya üzrə (eyni proqram üzrə) nəticələrə nisbətən az olarsa, yekun mərhələdən keçməmək ehtimalınız var. | |
| **İndiyədək bu proqram üzrə neçə nəfər keçib?** | İndiyədək Azərbaycanda bu proqram üzrə heç kim müvəffəq olmamışdır. | |

## B) Seçim prosesinin gedişatı

1. Sənəd qəbulunun elan olunması **(28 aprel)**
2. **Sənəd qəbulunun son tarixi** **(2 iyun) saat 17:00-dək**
3. Sənədlərə baxış və imtahan mərhələsinə keçmiş şəxslərin elan olunması **(9 iyun)**
4. **Yazılı imtahan** **(19 iyun)** ***planlaşdırılır***
5. Yazılı imtahan nəticələrinin elan olunması **(23 iyun)** ***planlaşdırılır***
6. **Müsahibə** **(4 və ya 5 iyul)**
7. 1-ci mərhələ, Səfirlik mərhələsindən keçmiş şəxslərin elan olunması **(8 iyul)** ***planlaşdırılır***
8. 2-ci seçim mərhələsi: **MEXT-in (Yaponiya Baş İdarəsi) Seçim Mərhələsi** **(oktyabr-noyabr)**
9. Yekun nəticənin elan olunması **(dekabr-fevral)**
10. **Yaponiyaya yola düşmə** **(aprel, 2024) və ya sentyabr, 2024)**

*Qeyd:* Burada qeyd olunan tarixlərdə dəyişiklik baş verə bilər. Öncədən anlayışınızı xahiş edirik. Sənəd qəbulu və ya digər mərhələlərdəki prosedurlar və ya onların tarixləri ilə bağlı vacib dəyişikliklər səfirliyimizin rəsmi internet səhifəsi, rəsmi Facebook və Instagram səhifələrində elan olunacaqdır. Həmin səhifələri mütəmadi olaraq izləməyinizi tövsiyə edirik.
Facebook: https://www.facebook.com/JapanEmb.Azerbaijan
Instagram: https://www.instagram.com/japanemb_baku/

| | |
|---|---|
| **Sənəd qəbulunun başlanması** | **28 aprel, 2023-cü il** |
| Hansı sənədləri təqdim etmək lazım olacaq? | Lazım olan sənədlərin *dəqiq siyahısı* və *hansı məqamda təqdim etmək lazım olması* barədə ətraflı məlumat üçün aşağıda **“C) Müraciət üçün lazım olan sənədlər”** bölməsinə nəzər sala bilərsiniz.<br><br>Qiymətləndirmə zamanı **1)** bütün sənədlərin olub-olmaması **2)** sənədlərin tələb olunan formatda olub-olmaması **3)** bütün sənədlərin məzmunun kifayət qədər dolğun olub-olmaması kimi meyarlar əsas götürüləcəkdir. |
| Sənədləri hara təqdim etmək lazımdır? | Sənədləri Yaponiyanın Azərbaycandakı Səfirliyinə təqdim etmək lazımdır. |
| Sənədləri hansı üsulla təqdim etmək olar? | Sənədləri yalnız **mail vasitəsilə** təhvil vermək gərəkdir. Bu zaman, hazır formatı olan sənədləri və digər gərəkli sənədləri Səfirliyin mail ünvanına **PDF formatında** göndərməyiniz xahiş olunur.<br><br>**“C) Müraciət üçün lazım olan sənədlər”** bəndində qeyd olunmuş bütün sənədləri bu mailə göndərməyiniz xahiş olunur:<br>✉ **culture-info@bk.mofa.go.jp**<br><br>**Qeyd 1:** Qeyd olunan mailə ünvanına **10 MB-dan artıq** həcmli maillər qəbul oluna bilmədiyi üçün, müraciət mailinizin həcminin 10 MB-dan az olmasına diqqət yetirməyiniz xahiş olunur. Əks halda mail bizə çatmayacaqdır. Əgər sənədləriniz bir mailə sığmazsa, bir neçə mailə bölərək (maillərdə adınızı və hansı hissə olduğunu qeyd etməklə) göndərməyinizi xahiş edirik. |

| | | |
|---|---|---|
| | **Qeyd 2:** Müraciət sənədlərinizi göndərdikdən sonra, mailin səfirliyə çatıb-çatmamasını yoxlamağınız xahiş olunur. Yalnız bizdən təsdiq gəldikdən sonra müraciətiniz qəbul olunmuş hesab olunacaqdır. Dəqiqləşdirmək üçün mail göndərdikdən sonra, 2 iş günü ərzində sizə cavab gəlməzsə, səfirliklə mail və ya zəng vasitəsilə əlaqə saxlamağınız xahiş olunur.<br><br>**Qeyd 3:** Bütün müraciətçilərə sənədləri qəbul olunduqdan sonra səfirlik tərəfindən "Müraciətçi nömrəsi" veriləcəkdir. Sizə təsdiq maili olaraq göndəriləcək "Müraciətçi nömrəsini" unutmamağınız xahiş olunur. Seçim prosesi ilə bağlı məlumatların yayımlanması zamanı sizin şəxsi müraciətçi nömrənizdən istifadə olunacaqdır.<br><br>**Qeyd 4:** Müsahibə mərhələsindən müvəffəq olacaq şəxslərdən həmin **sənədlərin orijinallarını səfirliyə təqdim etmək tələb olunacağı üçün, orijinal sənədlərinizi saxlamağınız xahiş olunur.**<br>❖ Sənəd qəbulu prosedurları ilə bağlı bizim yeni elanlarımızı səfirliyin *rəsmi internet səhifəsi*, Facebook və İnstagram səhifələrindən izləməyinizi xahiş edirik. Ən tez-tez yenilənən və dəqiq məlumatlar səfirliyin Facebook və Instagram səhifələrində olur.<br><br>Müraciət üsulu ilə bağlı digər suallarınız olarsa, mail vasitəsilə əlaqə saxlayıb məsləhətləşməyinizi xahiş edirik:<br>✉ **culture-info@bk.mofa.go.jp** | |
| **Sənəd qəbulu**<br><br>**Son tarix**<br><br>***2 iyun*** | 2 iyun (cümə) **saat 17:00-dək**<br><br>*Gərəkli sənədlər və qəbul ilə bağlı daha ətraflı məlumat:* **"C) Müraciət üçün lazım olan sənədlər"** bölməsində | |
| **Sənəd qəbulu mərhələsindən keçmiş şəxslərin elan olunması (9 iyun)** | Sənəd qəbulundan sonra səfirlik nümayəndələri tərəfindən sənədlərə baxış keçiriləcəkdir. Yalnız proqrama qəbul şərtlərinə uyğun gələn şəxslər növbəti, yəni **imtahan mərhələsinə** irəliləyəcəklər.<br><br>Hal-hazırda nəticələrin elan olunması **9 iyun tarixinə** planlaşdırılır. | |
| **Yazılı Imtahan (19 iyun)**<br><br>*Qeyd:* İmtahan tarixində dəyişiklik ola bilər | **Hansı imtahanlar olacaq?** | *İmtahanlar sizin seçəcəyiniz təhsil sahəsinə uyğun dəyişir deyə, aşağıdakı bölmədən dəqiq baxmağınız xahiş olunur:*<br><br>**"D" Kateqoriyası (Materialşünaslıq Mühəndisliyi):** yapon dili, ingilis dili, riyaziyyat və kimya<br><br>**"A", "B", "C", "E", F", "G" Kateqoriyaları:** yapon dili, ingilis dili, riyaziyyat və fizika<br><br>**"H" Kateqoriyası (Digər ixtisaslar):** yapon dili, ingilis dili, riyaziyyat, fizika və ya kimya (öz seçiminizə görə)<br><br>*Qeyd:* Bu kateqoriya ("H") üzrə fizika və ya kimya imtahan seçiminizi *"Müraciət formasının" 14-cü bölməsində* "Yaponiyada Təhsil almaq istədiyiniz sahə və ixtisas" ("Kimya" |

| | | |
|---|---|---|
| | | və ya "Fizika" fənlərindən birinə işarə qoyun) hissəsində qeyd etməyiniz xahiş olunur.<br><br>※<br>*"H"* və *"D" kateqoriyalarından* qarışıq şəkildə ixtisas seçimi edən şəxslər: kimya imtahanı<br>*"H"* və *"D"-dən başqa digər kateqoriyalar* üzrə qarışıq şəkildə ixtisas seçimi edən şəxslər: fizika imtahanı<br><br>*Qeyd:* Kateqoriyalar və bütün kateqoriyalar üzrə dəqiq ixtisaslar haqqında daha ətraflı məlumat üçün *"Təhsil Sahəsinə Dair İxtisas və Əsas Terminlər" ("Majors and Related Key Terms for Fields of Study")* sənədinə nəzər salmağınız xahiş olunur. |
| | **İmtahan saatları** | *Dəqiqləşdirildikdən sonra bütün müraciətçilərə mail vasitəsilə bildiriləcək.*<br><br>*Qeyd: Yapon dili imtahanı 100 dəqiqə, digər imtahanlar isə 1 saat sürəcəkdir.* |
| | **İmtahan məkanı** | İmtahan məkanı hələ dəqiqləşməmişdir. Məkan müraciətçilərə mail vasitəsilə bildiriləcək. |
| | Maksimum bal neçədir? | Bütün fənnlər üzrə maksimum bal: 100 bal<br><br>*Qeyd:* Minimal keçid balı açıqlanmır. |
| | Həm yapon dili, həm də ingilis dili imtahanında iştirak vacibdir? | Bəli, hər iki imtahanda iştirak vacibdir. Ümumiyyətlə, seçdiyiniz təhsil sahəsi üzrə bütün imtahanlarda iştirak mütləqdir. Çünki, sizin imtahan balınız **bütün imtahanların ortalama nəticəsi** olacaqdır. |
| | Hər kəs həm fizika həm də kimya imtahanında iştirak etməlidir? | Hər bir kateqoriya üzrə mütləq olan imtahanlar *yapon dili, ingilis dili* və *riyaziyyatdır*. *Fizika* və *kimya* imtahanı isə sizin seçdiyiniz təhsil sahəsi üzrə dəyişir deyə, yuxarıda qeyd olunan imtahan siyahısına nəzər salmağınız xahiş olunur. |
| | Mənim TOEFL/ IELTS üzrə sertifikatlarım vardır. Yenə də ingilis dili imtahanında iştirak etməliyəm? | Bəli, TOEFL/ IELTS sertifikatlarınız olsa da belə, ingilis dili imtahanında iştirakınız vacibdir. Sizin dil bacarığınızın qiymətləndirilməsi dil imtahanı əsasında olacaqdır. |
| | **Keçmiş illərin imtahan suallarına haradan nəzər sala bilərəm?** | https://www.studyinjapan.go.jp/en/planning/scholarship/application/examination/<br>☆ *İmtahandan öncə əvvəlki illərin imtahan suallarına nəzər salmağınız vacibdir. Öyrəşmədiyiniz imtahan sistemi olduğu üçün mütləq şəkildə etmək lazımdır!* |
| | İmtahana özümlə nə gətirməliyəm? | İmtahana özünüzlə yazı üçün lazım olan bütün ləvazimatları (qələm, karandaş, pozan, karandaş yonan və s.) gətirməyiniz xahiş olunur. Qol saatı da olması məsləhətlidir. |

<table>
<tr><td rowspan="3"></td><td></td><td>Qeyd: İmtahanda kalkulyator və ya digər hesablayıcı qurğulardan istifadəyə icazə verilməyəcək.</td></tr>
<tr><td>İmtahan online şəkildə keçirilə bilərmi?</td><td>Xeyr, <u>imtahan online şəkildə keçirilə bilməz.</u> Yalnız fiziki cəhətdən iştirak formasında mümkündür.</td></tr>
<tr><td>İmtahan günündə Azərbaycanda ola bilməyəcəyəm. Olacağım ölkədəki Yaponiya səfirliyinin imtahanında iştirak edə bilərəmmi?</td><td>Seçim imtahanını yalnız vətəndaşı olduğunuz ölkədəki Yaponiya səfirliyində verə bilərsiniz. Odur ki, təkcə yazılı imtahan deyil, müsahibə zamanı da məhz Yaponiyanın Azərbaycandakı Səfirliyində olmağınız gərəkdir. Eyni zamanda, proqramdan müvəffəq olacağınız təqdirdə, vizanı məhz Yaponiyanın Azərbaycandakı Səfirliyindən alaraq, buradan Yaponiyaya yola düşməyiniz gərək olacaqdır.</td></tr>
<tr><td>Yazılı imtahan nəticələrinin səfirlik tərəfindən elan olunması<br>(23 iyun)-planlaşdırılır</td><td colspan="2">Səfirlik yazılı imtahanın nəticələrini imtahandan bir neçə gün sonra (dəqiq tarix hələ məlum deyil) müraciətçilərə açıqlayacaq.<br><br>Qeyd 1: Adətən bütün imtahan iştirakçılarına (müvəffəq olmuş və imtahandan keçməmiş şəxslər) məlumat verilir.<br>Qeyd 2: <u>“Müraciət formasında”</u> qeyd etdiyiniz e-mail ünvanlarının düzgün və oxunaqlı olmasına xüsusi diqqət yetirməyinizi xahiş edirik. Sizinlə məhz həmin mail ünvanı ilə əlaqə saxlanıla bilər.</td></tr>
<tr><td>Müsahibə<br><br>(4 və ya 5 iyul)</td><td colspan="2"><u>Tarix:</u> 4 və ya 5 iyul<br><br><u>Saat</u>: dəqiq tarix və saat müsahibə mərhələsinə keçmiş şəxslərə daha sonra bildiriləcəkdir.<br><u>Məkan</u>: Yaponiya səfirliyi, 5-ci mərtəbə, Mədəniyyət və Məlumat otağı<br>☆Məkan və tarix dəyişə bilər deyə, öncədən anlayışınızı xahiş edirik.<br><br>Qeyd 1: Müsahibə yalnız ingilis, yapon və azərbaycan dillərində olacaqdır. Müsahibə zamanı vacib məqamlar:<ul><li>Sizin dil biliklərinizin Yaponiyada təhsil üçün kifayət olub-olmamasına diqqət yetiriləcək.</li><li>Yaponiya və yapon mədəniyyətinə marağınız və yapon dilini öyrənməyə güclü istəyinizi büruzə verə bilsəniz müsahibənin nəticələrinə müsbət təsir göstərə bilər.</li><li>Niyə məhz Yaponiyada təhsil almaq istəməyinizin səbəbi</li><li>Niyə məhz Texnologiya Kollecində və seçdiyiniz ixtisas üzrə təhsil almaq istəməyinizin səbəbi</li><li>Təhsil almaq istədiyiniz texnologiya kollecləri haqqında məlumatlı olmaq</li><li>Təhsildən sonrakı planlarınız. Xüsusilə Yaponiyada alacağınız təhsil nəticəsində iki ölkə arasında gələcək əlaqələrin genişlənməsinə verə biləcəyiniz töhvə haqqında soruşula bilər.</li></ul>Qeyd 2: <u>Müsahibədən öncə</u> valideynlərinizdən Yaponiyaya getməyinizə etiraz etmədiklərini dəqiqləşdirməyiniz xahiş olunur. Müsahibədə bu məqam da soruşulacaqdır.</td></tr>
<tr><td>1-ci mərhələ-Səfirlik mərhələsindən keçmiş şəxslərin elan olunması</td><td colspan="2"><u>1-ci mərhələ nəticələrin elan olunması təxmini olaraq 8 iyul tarixinə</u> nəzərdə tutulmuşdur.</td></tr>
</table>

| | |
|---|---|
| **(Təxmini 8 iyul tarixində)** | *Qeyd 1:* Adətən nəticələr sizə "Müraciət formasında" qeyd etdiyiniz e-mail və ya telefon vasitəsilə bildirilir. Odur ki, həmin məlumatların yalnış olmamasına xüsusi diqqət yetirməyinizi xahiş edirik.<br><br>*Qeyd 2:* Adətən bütün imtahan iştirakçılarına (müvəffəq olmuş və imtahandan keçməmiş şəxslər) məlumat verilir. |
| **2-ci seçim mərhələsi**<br><br>**(MEXT Seçim Mərhələsi)**<br><br>***Oktyabr-noyabr*** | Bu mərhələdə sizin bütün sənədlər səfirlik tərəfindən MEXT-ə göndərilir və səfirlik tərəfindən MEXT-ə tövsiyə olunursunuz. Bu müddət ərzində MEXT tərəfindən sizin namizədliyinizə baxış və yekun qərarın verilməsinə dair müzakirələr aparılır.<br><br>*Qeyd 1:* Səfirlik seçim mərhələsindən keçmiş və MEXT-ə tövsiyə olunmuş bütün şəxslərin MEXT-in son baxış mərhələsindən keçməmək ehtimalı var. Bunun yekun nəticə olmadığını nəzərə almağınızı xahiş edirik.<br><br>*Müddət: oktyabr-noyabr* |
| **Yekun nəticənin elan olunması**<br><br>***Dekabr- fevral*** | Yekun qərarın verilməsi dekabr- fevral tarixlərinə nəzərdə tutulmuşdur. Qalib gələn şəxslər Yaponiyaya yola düşürlər.<br><br>Texnologiya kolleci seçimi MEXT tərəfindən kolleclərlə məsləhətləşməklə qərarlaşdırılır. Bu zaman, tələbə qərara qarşı etiraz edə bilməz. |
| **Yaponiyaya yola düşmə** ✈ | *Aprel, 2024-cü il*<br><br>Öncə mart ayı ərzində viza və digər prosedurlar həyata keçirilir.<br><br>**Qeyd:** Fövqəladə hallar baş verərsə, səfərin təxirə salınması və ya ləğv olunması mümkündür. |
| **C) Müraciət üçün lazım olan sənədlər** | |
| **VACİB:** Təhvil verilən sənədlər geri qaytarılmır. İmtahandan müvəffəq olmayacağınız təqdirdə də, səfirliyə təqdim olunmuş sənədlərin geri qaytarılması mümkün olmadığı üçün, bununla bağlı öncədən anlayışınızı xahiş edirik.<br><br>Qiymətləndirmə zamanı **1)** bütün sənədlərin olub-olmaması **2)** sənədlərin tələb olunan formatda olub-olmaması **3)** bütün sənədlərin məzmunun kifayət qədər dolğun olub-olmaması kimi meyarlar əsas götürüləcəkdir. | |
| **Müraciət üçün lazım olan sənədlər (son tarix: 2 iyun, 2023-ci il, saat 17:00-dək)** | |
| Sənədlərin siyahısında hər bir sənədin **"Mütləq sənəd"** və ya **"Mütləq olmayan sənəd"** olması mötərizədə qeyd olunmuşdur. | |
| **Müraciət forması** | **(MÜTLƏQ SƏNƏD)**<br><br>※ Sənədi əllə yazdığınız halda **çap hərflərlə (block letters)** yazmağınız xahiş olunur. Silinən qələmdən istifadə etmək olmaz. |

※ *İmza hissəsidən başqa* sənədin bütün digər məlumatlarını kompüterdə yaza bilərsiniz. Həmin zaman yazdığınız formanı çap edib sonra qələmlə imzanızı atmağınız gərəkdir.

*Qeyd 1:* “Müraciət formasında” ad və familiyanızın mütləq şəkildə xarici pasportunuzda qeyd olunduğu formada daxil edilməsi gərəkdir.

*Qeyd 2:* “Müraciət formasına” şəkli (3.5 x 4.5 sm) yapışdırmağınız vacibdir. Şəklin arxasında ad, familiya və milliyətinizi yazmağı unutmayın. (Ağ fonda, son 6 ay ərzində çəkilən şəkil olmalıdır.) *Şəkli yapışdırmadan göndərilən sənədlər qəbul olunmayacaqdır.* Eyni zamanda, elektron şəklinizi müraciət formasının müvafiq qrafasına əlavə edib, sənədi rəngli çap edib təqdim etmək də mümkündür.

*Qeyd 3:* Sənədin 1-ci səhifəsinin 6-cı punktunda qeyd olunan “Yaşınız” bölməsində 2024-cü ilin aprel ayının 1-i tarixində olacağınız yaşı qeyd edin.

*Qeyd 4:* Xüsusilə, “Academic background”- “Akademik təcrübəniz” haqqında olan hissədə diqqətli olmağınızı xahiş edirik. 11 illik təhsilinizi eyni məktəbdə alsanız da belə, bütün təhsilinizi *ibtidai*, *ümumi orta* və *tam orta təhsil* olmaqla 3 hissəyə bölüb yazmağınız gərəkdir.

**Eyni zamanda, sonda təhsil aldığınız illərin ÜMUMİ sayını (məsələn, 11 il) qeyd etməyiniz vacibdir.**
Məsələn,
*İbtidai təhsil* (4 il): 1,2,3 və 4-cü siniflər
*Ümumi orta təhsil* (5 il): 5,6,7,8 və 9-cu siniflər
*Tam orta təhsil* (2 il): 10 və 11-ci siniflər

“Akademik təcrübəniz” ilə bağlı hissənin doldurulma nümunəsi:

| | |
|---|---|
| 3. 最終学歴が卒業見込の者は、「卒業年月」には卒業見込年月を記入すること。 | 3. For those whose status is "Expected to graduate", write expected year and month of graduation in the space of "To: yyyy/mm". |
| 4.「卒業状況」を「その他」と選択した場合は、具体の状況を「特記事項欄」に記入すること。(例:退学、休学中) | 4. If the applicant chooses "Other status" in the Status, indicate the detail of status in the Remarks column. (ex. Withdrawal, leave of absence) |
| 5.「大学予備教育」は後期中等教育に含まれる。 | 5. Preparatory education for university admission is included in upper secondary education. |
| 6.「大学入学資格試験」に合格している場合には、その旨「特記事項」欄に記入すること。 | 6. If the applicant has passed the university entrance qualification, indicate this in the Remarks column. |
| 7.「飛び級」をしている場合には、その旨を「特記事項」欄に記入すること。(例:後期中等教育ー3年次を飛び級により短期卒業) | 7. Any school years or levels skipped should be indicated in the Remarks column. Example: Upper secondary education - Skipped senior year for the early graduation. |
| 8. 住居の移転や大学の再入学等を理由に、同教育課程で複数の学校に在籍していた場合は、同じ欄に複数の学校の在籍を記載すること。 | 8. If you attended multiple schools at the same level of education due to moving house or readmission to university, write all the schools in the same column. |
| 9. 下記に書ききれない場合は、別紙に記入することも可能。しかしその場合は、別紙に記入する旨を明記すること。 | 9. You may use a separate piece of paper if the space below is insufficient. In such a case, please indicate that the information is on a separate page. |

| 教育段階 Educational level | 学校名 School name | 所在地 Location | 入学及び卒業(見込)年月 Year & month of enrollment & graduation (expected to graduate) | 修学年数 Period of schooling attended | 卒業状況 Status | 特記事項 Remarks |
|---|---|---|---|---|---|---|
| 初等教育(小学校) Primary Education (Elementary School) | SCHOOL No.500 | 州・省 State/Province AZERBAIJAN<br>市・町 City/Town BAKU | 入学 From 2009 年 yyyy 9 月 mm<br>卒業 To 2013 年 yyyy 6 月 mm | 4 年 yrs | | |
| 前期中等教育(中学校) Lower Secondary Education(Middle School/Junior High School) | SCHOOL No.500 | 州・省 State/Province AZERBAIJAN<br>市・町 City/Town BAKU | 入学 From 2013 年 yyyy 9 月 mm<br>卒業 To 2017 年 yyyy 6 月 mm | 4 年 yrs | | |
| 後期中等教育(高校) Upper Secondary Education ((Senior) High School) | SCHOOL No.500 | 州・省 State/Province AZERBAIJAN<br>市・町 City/Town BAKU | 入学 From 2017 年 yyyy 9 月 mm<br>卒業 To 2020 年 yyyy 6 月 mm | 3 年 yrs | | |
| 高等教育(大学学部) Tertiary(Higher) Education (Undergraduate) | BAKU OPEN UNIVERSITY | 州・省 State/Province AZERBAIJAN<br>市・町 City/Town BAKU | 入学 From 2020 年 yyyy 9 月 mm<br>卒業 To 2024 年 yyyy 7 月 mm | 3 年 yrs | ☐ 卒業 Graduated<br>☑ 卒業見込 Expected to graduate<br>☐ その他 Other status | |
| | | | **2024年4月1日時点の通算の学校教育修学年数 Total years of schooling attended as of April 1, 2024** | 14 **年 yrs** | | |
| 特記事項 Remarks (上記の特記事項欄で書ききれない場合は適宜使用すること) You may use the space if the space of the above Remarks column is insufficient. | | | | | | |

| | |
|---|---|
| | *Qeyd:* "Müraciət formasına" ən vacib məqamlardan biri **14-cü punktdakı "Yaponiyada təhsil almaq istədiyiniz sahə və ixtisas"** (Preferred Field of Study and majors elements) bölməsidir. Bu bölmədə sizə maraqlı olan sahələri və ixtisasları istəyinizdən asılı olaraq 1-ci, 2-ci və 3-cü seçim kimi qeyd etməyiniz lazım olacaq. Sahə və ixtisas seçimi üçün *"Təhsil Sahəsinə Dair İxtisas və Əsas Terminlər" ("Majors and Related Key Terms for Fields of Study")* sənədinə nəzər salmağınız xahiş olunur. Eyni zamanda, bu sualın ardı olaraq **15-ci punktu** (həmin sahə və ixtisasları seçmə səbəbləriniz) da aydın yazmağınız gərəkdir.<br>*Bu hissə sizin təhsil alacağınız kollecin təyin olunmasında birbaşa rol oynadığı üçün sahə və ixtisas seçiminizi dərindən düşünməyinizi məsləhət görülür.*<br><br>Bundan əlavə, **16 və 17-ci punktları** da ətraflı şəkildə yazmağınız, boş qoymamağınız xahiş olunur. Bu suallara cavab sizin sənədlərin qiymətləndirilməsi mərhələsinə böyük təsir edəcəkdir. |
| **Bitirdiyiniz Məktəb və ya Universitetdən Qiymət Vərəqəsi** | **(MÜTLƏQ SƏNƏD)**<br><br>***Sənədi** notarisuda tərcümə və təsdiq olunmuş şəkildə təqdim etməyiniz gərəkdir.*<br><br>*"Qiymət vərəqəsi" ("Transcript")* sənədi son bitirdiyiniz və ya bitirəcəyiniz məktəbin və ya universitetin (attestat və ya qiymət vərəqəsi) hər bir təhsil ilinin qiymətlərini, ortalama balını (GPA) və balın hesablama sistemini əks etdirən sənəd olmalıdır.<br><br>*Vacib qeyd:*<br>***a) Hal-hazırda orta məktəbdə təhsil alan və ya bitirmiş şəxslər:*** yalnız orta məktəbin (xüsusilə 10-11-ci sinif üzrə) "Qiymət vərəqəsi" (ATTESTAT) təqdim etməlidir. (Məktəbi bu il bitirəcək şəxslər məktəbdən müvəqqəti qiymət vərəqəsini verməklərini xahiş etməlidir. Yekun seçimlərə qədər isə müvəffəq olmuş şəxslərdən rəsmi attestat sənədini təhvil vermələri tələb olunacaqdır.)<br>※ Azərbaycanda orta məktəb təhsilində ümumtəhsil müəssisələri çoxluq təşkil etdiyi üçün, əsasən tam orta təhsil pilləsi-high school (10 və 11-ci siniflər) üçün olan qiymət nəticələrinin olması kifayətdir.<br><br>***b) Hal-hazırda universitetdə təhsil alan və ya bitirmiş şəxslər:*** həm bitirdikləri orta məktəb, həm də universitetin qiymət vərəqələrini təqdim etməlidirlər.<br><br>*Qeyd:* Əgər sizin "Transcript" sənədinizin orijinalı ingilis dilindədirsə və sadəcə bir ədəddirsə, orijinal sənədin sadəcə surətini təqdim edə bilərsiniz. Proses zamanı MEXT həmin sənədin surətinin təsdiq olunmasını tələb edə bilər (məktəb və ya universitet tərəfindən təsdiq olunması).<br><br>*Təhvil verilən sənədlər geri qaytarılmadığı üçün yalnız bir nüsxədə olan orijinal sənədinizi bizə təhvil verməyin.* |
| **Bitirdiyiniz Məktəb və ya Universitetin Diplomu** | **(MÜTLƏQ SƏNƏD)**<br><br>***Sənədi** notarisuda tərcümə və təsdiq olunmuş şəkildə təqdim etməyiniz gərəkdir.*<br><br>**A) Hal-hazırda məktəbi bitirməmisinizsə (11-ci sinif şagirdləri)-** bu il məktəbi bitirəcəyiniz haqqında məktəbdən ARAYIŞ (Yaponiya səfirliyinə) |

| | | |
|---|---|---|
| | • "Arayış" sənədini notariusda tərcümə və təsdiq edib təqdim etmək gərəkdir.<br>• Müvəffəq olan şəxslər daha sonra Məktəbi bitirdiyini sübut edən "ATTESTAT" təqdim etməlidir.<br>**B) Məktəbi bitirmisinizsə,** bitirdiyiniz məktəbdən "ATTESTAT"<br>• "Attestat" sənədini tərcümə və təsdiq edib təqdim etmək gərəkdir.<br><br>**C) Hal-hazırda universitetdə təhsil alan şəxslər-** orta məktəbdən "ATTESTAT" və "Universitetdə təhsil aldığınıza dair ARAYIŞ"<br>**D) Universiteti bitirmiş şəxslər-** həm orta məktəbdən "ATTESTAT", həm də universitetdən "DİPLOM"<br><br>☆ Burada qeyd olunan *"Arayış"* sənədində sadəcə hal-hazırda təhsil aldığınız barədə deyil, "Təhsil müəssisəsini bitirəcəyiniz və nə zaman bitirəcəyinizə dair qeyd" də olması gərəkdir.<br><br>Əgər sizin "Diplom" (Attestat) sənədinizin orijinalı ingilis dilindədirsə və sadəcə bir nüsxədirsə, orijinal sənədin sadəcə surətini təqdim edə bilərsiniz. Proses zamanı MEXT həmin surəti təsdiq etməyinizi tələb edə bilər (məktəb və ya universitet tərəfindən təsdiq olunması)<br>*Təhvil verilən sənədlər geri qaytarılmadığı üçün yalnız bir nüsxədə olan orijinal sənədinizi bizə təhvil verməyin.* | |
| **Bitirdiyiniz və ya Təhsil aldığınız Məktəb və ya Universitetdən Tövsiyə məktubu** | **(MÜTLƏQ SƏNƏD)** | |
| | Mən məktəbi/ universiteti bitirmişəm. Bu halda tövsiyə edən şəxs kim olmalıdır? | Bu halda tövsiyə məktubu bitirdiyiniz məktəb **və ya** universitetin direktoru və ya müəllimi tərəfindən verilə bilər. |
| | Mən hal-hazırda məktəb/universitetdə təhsil alıram. Bu halda tövsiyə edən şəxs kim olmalıdır? | Əgər siz hal-hazırda məktəb və ya universitetdə təhsil alırsınızsa, tövsiyə məktubu hal-hazırda təhsil aldığınız müəssisə (məktəbdirsə məktəb, universitetdirsə universitet) tərəfindən hazırlanmalıdır. |
| | Tövsiyə məktubu üçün məhz təqdim olunan formatı istifadə etmək lazımdır? | Məktubun formatı sadəcə bir nümunədir. Digər rəsmi sənəd formatları və ya rəsmi blankda tövsiyə edən şəxsin imzası olan məktublar da qəbul olunacaqdır. |
| | Əgər tövsiyə edəcək şəxs xaricdə yaşayırsa, məktubu online şəkildə təqdim etməsi mümkündürmü? | Tövsiyə edəcək şəxsin Tövsiyə məktubunun skan formasını səfirliyin email ünvanına göndərməsi xahiş olunur. Bu zaman sənədin mütləq şəkildə rəsmi blankda olması və həmin şəxsin imzası (elektron imza mümkündür) olması gərəkdir. Həmin şəxs sənədi PDF formatında hazırlayaraq skan şəklində səfirliyin **culture-info@bk.mofa.go.jp** ünvanına (maildə tövsiyə etdiyi şəxsin adını da qeyd etməklə) göndərə bilər. |
| **Sağlamlıq haqqında arayış** | **(MÜTLƏQ SƏNƏD)**<br><br>Sənəd ingilis dilində həkim tərəfindən tərtib olunmalı, üzərində həkimin imzası və xəstəxananın möhürü olmalıdır. | |

| | | |
|---|---|---|
| | *Qeyd 1:* Sənədin 7-ci bölməsində "Müraciətçini tövsiyə edirsinizmi?" hissəsinə "YES" yazılmasına diqqət yetirin. Əks halda sizin sənəd qəbul olunmayacaqdır.<br><br>*Qeyd 2:* Sahə seçimi olaraq **"G) Dəniz mühəndisliyi"** seçən şəxslərin nəzərinə: Müraciətçinin görmə qabiliyyəti eynəksiz 0.5-dən aşağıdırsa, "Sağlamlıq haqqında arayışda" "Eynəklə 0.5-dən çox görmə qabiliyyəti" olduğunun qeyd olunması lazım olacaq. | |
| | Arayışı haradan ala bilərəm? | Səfirlikdə arayışı hansı xəstəxanadan ala biləcəyiniz barədə məlumat yoxdur. Özünüzün uyğun xəstəxana axtarmağınız xahiş olunur. |
| | 2-ci bölmədəki Rentgenlə bağlı hissədə Rentgen müayinəsinin şəklini də əlavə etmək lazımdır? | Xeyr, şəkli əlavə etməyə ehtiyac yoxdur. Şəkillə bağlı tarix və bütün lazımlı detalları qeyd etməyiniz yetərlidir. |
| **Universitetdə təhsil aldığınıza dair Arayış** | **(MÜTLƏQ OLMAYAN SƏNƏD-** *Yalnız universitetdə təhsil alan şəxslər*)<br><br>**"Universitetdə təhsil aldığınıza dair Arayış"** sənədinin notariusda tərcümə və təsdiq olunmuş versiyasını təqdim etməyiniz gərəkdir. | |
| **Xarici pasportun şəkil olan səhifəsinin surəti** | **(MÜTLƏQ OLMAYAN SƏNƏD)**<br><br>*Yalnız xarici pasportu olan şəxslər* | |
| **Dil bacarığını sübut edən sənəd** | **(MÜTLƏQ OLMAYAN SƏNƏD)**<br><br>*Yapon dili Bacarıq imtahanı (JLPT), TOEFL və ya IELTS sertifikatları olan şəxslər* sənədlərin surətini təqdim edə bilərlər.<br><br>*Qeyd:* əgər sertifikatı internetdən çap edirsinizsə, sizin ad və soyadınızın da olduğu səhifəni çap edib təqdim etməyiniz xahiş olunur. | |
| **D) Tez-tez soruşulan suallar** | | |
| Seçim zamanı nəticəyə ən çox təsir edən məqamlar hansılardır? | Sözsüz ki, yekun nəticə bütün göstəricilərinizin ümumiləşdirilməsi əsasında aparıldığı üçün hər bir detalın az və ya çox təsiri vardır. Lakin, əsas məqam bütün yazılı imtahanların nəticələri (ortalama bal) olacaqdır. Keçmiş illərin imtahan suallarına nəzər salsanız daha effektiv nəticə əldə edə bilərsiniz: https://www.studyinjapan.go.jp/en/planning/scholarship/application/examination/ | |
| Mən hal-hazırda 11-ci sinif şagirdiyəm. Bu il seçimlərdə iştirak edə bilərəm? | Bəli, həmin il məzun olacağınız şərtiylə müraciət edə bilərsiniz. Seçimlərdə müvəffəq olduqdan sonra məzun ola bilməyəcəyiniz təqdirdə proqramda iştirakınız ləğv olunacaqdır. | |
| Seçimlərdən müvəffəq | Xeyr, seçim prosesinin müxtəlif mərhələlərində (sənəd qəbulu, imtahan, müsahibə) müvəffəq olmama səbəbləri açıqlanmır. Bununla bağlı anlayışınızı xahiş edirik. | |

| | |
|---|---|
| olmama səbəbini öyrənə bilərəm? | |
| Keçən ilki seçimlərdəki göstəricilər indiki seçimlərə təsir edəcəkmi? | Xeyr, əvvəlki illərin nəticələri yeni seçimlərə təsir etmir. Siz yalnız cari ildəki göstəricilərinizə görə qiymətləndirilirsiniz. |
| Mən hal-hazırda başqa ölkədə yaşayan Azərbaycan vətəndaşıyam. Proqrama müraciət edə bilərəm? | Bəli, proqrama müraciət edə bilərsiniz. Lakin, Azərbaycandakı Yaponiya səfirliyinin keçirəcəyi yazılı imtahan və müsahibə mərhələsində mütləq şəkildə öz iştirakınız (həmin zaman Bakıda olmağınız) vacibdir. |
| Xarici vətəndaşlar proqrama müraciət edə bilərlər? | Xeyr, digər ölkələrin vətəndaşları Azərbaycandakı Yaponiya səfirliyi vasitəsilə müraciət edə bilməzlər. Həmin şəxslərin vətəndaşı olduqları ölkəyə qayıtmaqları və həmin ölkədəki Yaponiya səfirliyi/ konsulluğuna müraciət etmələri xahiş olunur. |
| Ailəmi özümlə apara bilərəm? | Ailə üzvlərinin də birlikdə getməsi mümkündür. Lakin, ailə üzvləri üçün təqaüddə heç bir əlavə məbləğ nəzərdə tutulmayıb və müxtəlif növ prosedurlardan keçmək gərəkdir. Xüsusi hallar istisna olmaqla, xarici tələbə ilk növbədə özü Yaponiyaya gedib hazırlıq gördükdən sonra ailə üzvünü Yaponiyaya çağırması nəzərdə tutulmuşdur. |
| 1 illik hazırlıq təhsili almadan birbaşa kollecdə təhsilə başlaya bilərəm? | Xeyr, bütün xarici tələbələr texnologiya kollecində təhsildən öncə 1 illik intensiv hazırlıq kursunda təhsil almalıdırlar. |
| Yaponiyaya getdikdən sonra ixtisasımı dəyişə bilərəmmi? | Xeyr, iştirakçı 1 illik hazırlıq kursu və ya texnologiya kollecində təhsil zamanı ixtisasını dəyişə bilməz. |
| Yaponiyaya getdikdən sonra oxuduğum texnologiya kollecini dəyişə bilərəm? | Xeyr, dəyişə bilməz. İştirakçı Yaponiyaya getdikdən sonra MEXT tərəfindən qərarlaşdırılan hazırlıq kursu və texnologiya kollecində təhsil almalıdır.<br><br>*MEXT-in qərarına qarşı etirazlar qəbul olunmayacaqdır.* |
| Müraciət sənədlərini geri götürə bilərəm? | Xeyr, səfirliyə təqdim olunan sənədlər geri qaytarılmır. Odur ki, yalnız bir nüsxədə olan orijinal sənədlərinizi (“Diplom”, “Diploma əlavə” və ya digər sənədləri) verməməyiniz xahiş olunur. |
| Yaponiyaya getdikdən sonra təqaüd elə ilk gündən veriləcək? | Xeyr, təqaüdün verilməsinə təxminən 1 aya yaxın zaman lazım olur. Siz Yaponiyaya getdikdən sonra sənədləşmə işləri və bank hesabınızın açılmasından sonra təqaüd sizin hesabınıza köçürüləcəkdir. Odur ki, ilk ay üçün özünüzlə kifayət qədər (2000 ABŞ dolları) pul götürməyiniz məsləhətdir. |

| | |
|---|---|
| Yataqxana ilə təmin olunacağam? | Adətən hər bir iştirakçı hazırlıq kursu müddətində yataqxanada yaşaya bilər. Yataqxana xərclərini iştirakçı aylıq təqaüdündən ödəməli olacaqdır. Eyni zamanda, texnologiya kollecinə daxil olduqdan sonra da tələbənin kollecə məxsus yataqxanada qalmaq imkanı ola bilər və bu halda yenə də qalma xərclərini təqaüddən ödəməlidir. |
| Proqram zamanı eyni zamanda işləyə bilərəmmi? | Siz Yaponiyaya Tələbə statusunda gedəcəyiniz üçün sizin əsas fəaliyyətiniz təhsil olacaqdır. Odur ki, sizdən ilk növbədə daha çox dərslərinizə və təhsilinizə vaxt ayırmağınız və cidd-cəhdlə yanaşmağınız gözlənilir. Lakin, İmmiqrasiya idarəsindən "Yaşama Statusu üzrə İcazə Verilən Fəaliyyətlərdən Başqa Fəaliyyətlə Məşğul olmaq üçün İcazə" sənədini alaraq məhdud saatlarda çalışmağınız mümkündür. |

**E) Əlavə məlumat**

Əlavə məlumat üçün Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi ilə əlaqə saxlaya bilərsiniz.

Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Təhsil şöbəsi
*Əlaqə nömrəsi:* +994 12 490 7819
*Elektron ünvan:* culture-info@bk.mofa.go.jp

- Suallarınızı mümkün qədər səfirliyin culture-info@bk.mofa.go.jp mail ünvanına yönləndirməyiniz xahiş olunur.

*Qeyd:* Zəng etməzdən və ya mail yazmazdan əvvəl yazılanları diqqətlə oxumağınızı xahiş edirik. Sizi maraqlandıran suala cavab artıq qeyd olunmuş ola bilər.